*Fəlsəfə doktoru elmi dərəcəsi iddiaçıları üçün*
*elmi dərəcənin verilməsi ilə bağlı normativ sənədlər əsasında hazırlanmışdır.*




# FƏLSƏFƏ DOKTORU
## elmi dərəcəsi

Fəlsəfə doktoru elmi dərəcəsini Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra – Komissiya) təsdiq etdiyi “Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji işçilərə elmi dərəcələr verilməsinə dair ixtisasların nomenklaturu”na uyğun olaraq elm sahələri üzrə Komissiya verir.

Fəlsəfə doktoru elmi dərəcəsi magistr (rezident) elmi-ixtisas dərəcəsi və ya ona bərabər tutulan ali təhsili, xüsusi elmi hazırlığı (doktorantura, adyunktura, dissertantura) olan iddiaçılara elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində Komissiyanın yaratdığı dissertasiya şuralarında fəlsəfə doktoru dissertasiyasının müdafiəsindən sonra dissertasiya şurasının vəsatəti əsasında verilir.

## FƏLSƏFƏ DOKTORU
## elmi dərəcəsi iddiaçılarına dair tələblər

### Dissertasiya mövzusu

Müvafiq elm sahələri üzrə yüksəkixtisaslı elmi kadr hazırlamaq səlahiyyəti (doktorantura, adyunktura və ya dissertanturası) olan elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuralarında hər bir iddiaçı üçün ayrılıqda müəyyən edilir.

Elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuralarının təqdimatı əsasında Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasında hər bir iddiaçı üçün ayrılıqda təsdiq edilir və ya dəyişdirilir.

### Elmi rəhbərin təyin edilməsi

Elmi rəhbərlər müvafiq elm sahələri üzrə yüksəkixtisaslı elmi kadr hazırlamaq səlahiyyəti olan (doktoranturası olan) elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuralarında hər bir iddiaçı üçün ayrılıqda təsdiq edilir.

Dissertasiya ilə bağlı tədqiqat işlərinin iki müxtəlif təşkilatda və ya iki ixtisas üzrə aparılması planlaşdırıldıqda, elmlər doktoru, yaxud fəlsəfə doktoru elmi dərəcəsi olan iki rəhbər təyin oluna bilər.

İlkin müzakirədən sonra dissertasiyanın müdafiəsinə qədər iddiaçının elmi rəhbəri vəfat etdikdə və ya iddiaçının elmi rəhbəri olmaqdan imtina etdikdə iddiaçı elmi rəhbər olmadan dissertasiyanın müdafiəsinə buraxılır.

# Fəlsəfə doktoru imtahanları

- İmtahanların verilməsi iddiaçının dissertasiya müdafiəsinə buraxılması üçün mütləq şərtdir.
- İmtahanlar dissertasiyanın ilkin müzakirəsinədək verilir və iddiaçının ixtisas üzrə bilik səviyyəsini müəyyən edir.
- İmtahanların nəticələri həmin imtahanların verildiyi tarixdən dissertasiyanın ilkin müzakirəsinədək **5** (beş) il müddətində etibarlı sayılır.
- İmtahanın keçirilməsi ilə bağlı xərcləri nəzdində imtahan komissiyası yaradılan elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi ödəyir.
- İmtahanların keçirilmə qaydasını və proqramını Komissiya təsdiq edir və imtahan nəticələrinin qiymətləndirilməsi Komissiyanın müəyyən etdiyi meyarlar əsasında aparılır.
- İddiaçılara hər bir imtahan üzrə onun nəticəsini özündə əks etdirən və Komissiyanın müəyyən etdiyi formada şəhadətnamə verilir.
- İddiaçının dissertasiya profili üzrə elm sahəsində ali təhsili olmadıqda (tibb və baytarlıq elmləri istisna olmaqla), o həmin elm sahəsinin ümumelmi əsaslarından Komissiyanın təsdiq etdiyi proqram əsasında əlavə imtahan verməlidir.

**İMTAHANLAR**

**İxtisas fənni**
(dissertasiya **2** (iki) ixtisas üzrə hazırlandığı halda həmin ixtisas fənlərinin hər birindən)

→ İddiaçının seçiminə uyğun olaraq, dissertasiya işinin yerinə yetirildiyi və ya dissertasiya müdafiəsinin keçiriləcəyi elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində verilir

**Xarici dil**
(dissertasiyanı Azərbaycan və ya rus dillərində yazan və müdafiə edən iddiaçılar üçün ingilis,alman və fransız dillərindən biri)

**Azərbaycan dili**
(dissertasiyanı Azərbaycan dilində yazan və müdafiə edən əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün)

→ Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir

**Dissertasiyanın nəticələrinə dair dərc olumalı məqalələrin sayı** → **5** (beş),

o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə:

**Humanitar** və **ictimai elmlər** üzrə azı **1** (bir) məqalə

**Dəqiq** və **təbiət elmləri** üzrə azı **2** (iki) məqalə

Dissertasiyanın mövzusuna uyğun təqdim edilmiş:

**yerli patent**
dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən Azərbaycan Respublikasının dövri elmi nəşrlərində **1** (bir) məqaləyə (həmmüəllifsiz olduqda **2** (iki) məqaləyə) bərabər tutulur.

**beynəlxalq patent**
dissertasiyaların əsas elmi nəticələrini əks etdirən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilən **1** (bir) məqaləyə (həmmüəllifsiz olduqda **2** (iki) məqaləyə) bərabər tutulur.

**Respublika və ya beynəlxalq miqyaslı elmi tədbirlərin (konfrans, konqres, simpozium və s.) nəticələri üzrə dərc olunmuş məruzə və tezislərin sayı** → azı **3** (üç) (beynəlxalq elmi tədbirlərin nəticələri üzrə azı **1**-i (biri) xaricdə dərc olunmaqla)

Dissertasiyaların əsas elmi nəticələrini əks etdirən elmi işlər ilkin müzakirədən azı **1** (bir) ay əvvəl dərc edilməlidir. Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc edilən elmi işlər dissertasiya müdafiəsi üçün ilkin müzakirədən əvvəl həmin sistemlərdə (bazalarda) yerləşdirilməlidir.

# Dissertasiyanın ilkin müzakirəyə təqdim olunması və müdafiəsi mərhələləri

## İlkin müzakirə

İddiaçının rəsmi müraciət etdiyi tarixdən **3** (üç) ay ərzində keçirilir.

İlkin müzakirənin keçirilməsi üçün azı **2** (iki) rəyçi təyin edilir.

İlkin müzakirə zamanı dissertasiyanın yazıldığı ixtisas (ixtisaslar) üzrə elmi dərəcəsi olan azı **3** (üç) mütəxəssis iştirak etməlidir.

İddiaçıya **1** (bir) aydan gec olmayaraq müzakirənin keçirildiyi iclasın geniş protokolu və dissertasiya haqqında rəy verilir.

İlkin müzakirənin gedişinin videoçəkilişi elektron daşıyıcıda saxlanılır və dissertasiya işi Komissiyaya təqdim edildikdə iddiaçının digər sənədlərinə əlavə olunur.

Dissertasiya işi ilkin müzakirənin keçirildiyi tarixdən **1** (bir) il müddətində müdafiənin təşkili üçün müvafiq dissertasiya şurasına təqdim edilməlidir. Əks halda dissertasiya işi yenidən ilkin müzakirədən keçirildikdən sonra müvafiq dissertasiya şurasına təqdim oluna bilər.

# Elmi seminar

Dissertasiya şurasına təqdim edilmiş dissertasiya müzakirə üçün şura nəzdində fəaliyyət göstərən elmi seminara göndərilir.

Dissertasiyanın mövzusu **2** (iki) ixtisası əhatə etdikdə dissertasiya işi uyğun ixtisaslar üzrə fəaliyyət göstərən elmi seminarların birgə iclasında müzakirə olunur.

Dissertasiyanın müzakirəsi dissertasiya və müvafiq materiallar elmi seminara təqdim ediləndən sonra **2** (iki) ay müddətində keçirilməlidir.

Elmi seminarda müzakirə zamanı dissertasiya üzrə **2** (iki) (azı **1** (bir) elmlər doktoru, müstəsna hallarda **2** (iki) fəlsəfə doktoru) rəyçi təyin edilir.

Dissertasiyanın mövzusu **2** (iki) ixtisası əhatə etdikdə, elmi seminarda müzakirə zamanı hər bir ixtisasüçün **1** (bir) elmlər doktoru və ya **2** (iki) fəlsəfə doktoru rəyçi təyin edilir.

Elmi seminarın katibi elmi seminarın keçirilməsinə azı **3** (üç) gün qalmış seminara daxil olmuş rəyləri iddiaçıya təqdim edir.

Elmi seminarın gedişinin videoçəkilişi aparılaraq elektron daşıyıcıda saxlanılır və dissertasiya işi Komissiyaya təqdim edildikdə iddiaçının digər sənədlərinə əlavə olunur.

Elmi seminar dissertasiyanın müdafiəyə tövsiyə edilib-edilməməsinə dair qərar qəbul edir.

Elmi seminarın protokolu dissertasiya işinə verilmiş rəylərlə birlikdə elmi seminarın keçirildiyi tarixdən **1** (bir) ay müddətinədək dissertasiya şurasına təqdim edilir.

Elmi seminarda dissertasiyaya dair iradların qısa zamanda **(10** (on) günədək) aradan qaldırılması mümkün olduğu halda, avtoreferatın Komissiyanın müəyyən etdiyi siyahı üzrə zəruri ünvanlara göndərildiyi tarixədək dissertasiyada qismən düzəlişlər etməyə icazə verilir. Bu zaman iradların aradan qaldırılması haqqında rəyçilərin təkrar rəyləri elmi seminara təqdim olunmalıdır.

Elmi seminar dissertasiyanı müdafiə üçün tövsiyə etmədiyi halda, dissertasiya şurası müzakirə zamanı müəyyən edilmiş nöqsanların əsaslandırıldığı qərarını vəsatət qaldıran elmi müəssisə və təşkilata, ali təhsil müəssisəsinə göndərir və dissertasiya və sənədləri iddiaçıya qaytarır.

## Opponent

Fəlsəfə doktoru dissertasiyası üzrə elmi dərəcəsi olan **3** (üç) rəsmi opponent (azı **1**-i (biri) elmlər doktoru olmaqla) təyin edilir.

Dissertasiya mövzusu **2** (iki) ixtisası əhatə etdikdə, ixtisaslardan biri üzrə **1** (bir) (elmlər doktoru), digəri üzrə **2** (iki) rəsmi opponent təyin olunur.

- Rəsmi opponentlər eyni təşkilatı təmsil etməməlidirlər.
- Rəsmi opponentlərdən **1**-i (biri) müdafiəni keçirən şuranın üzvü ola bilər.
- Komissiyanın ekspert şuralarının üzvləri yalnız Komissiyanın razılığı ilə rəsmi opponent təyin oluna bilərlər.

Rəsmi opponentlərin yazılı rəyləri müdafiə gününə azı **10** (on) gün qalmış dissertasiya şurasına, rəylərin surəti isə həmin müddətdə iddiaçıya təqdim edilməlidir.

Dissertasiyanın müdafiəsində rəsmi opponentlərin iştirakı mütləqdir.
Müstəsna hallarda müsbət rəy vermiş rəsmi opponentlərdən yalnız birinin müdafiədə iştirak etməməsinə icazə verilir.
Bu halda dissertasiya şurasının iclasında həmin rəsmi opponentin rəyi oxunur.

Opponentlərin verdikləri rəylər mənfi olduğu halda da dissertasiyanın müdafiəsi keçirilir.

Opponent ola bilməzlər:

- ***Komissiyanın Rəyasət Heyətinin sədri və üzvləri***
- ***Komissiya Aparatının əməkdaşları***
- ***dissertasiya şuralarının sədrləri, sədr müavinləri və elmi katibləri***
- ***elmi seminarların sədrləri***
- ***iddiaçının elmi rəhbəri***
- ***iddiaçının elmi əsərlərinin həmmüəllifləri***
- ***dissertasiyanın yerinə yetirildiyi və ya iddiaçının işlədiyi kafedra, laboratoriya və ya şöbənin əməkdaşları, müəssisənin rəhbərləri***
- ***ekspert şuralarının sədrləri, sədr müavinləri***
- ***elmi dərəcələr verilməsində fəaliyyətinə Komissiyanın məhdudiyyət qoyduğu şəxslər***

# Dissertasiya müdafiəsi

Dissertasiyaların müdafiəsi elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində Komissiya tərəfindən yaradılan dissertasiya şuralarında keçirilir.

İxtisas üzrə  müvafiq dissertasiya şurası olmadığı halda elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin vəsatəti əsasında Komissiya birdəfəlik dissertasiya şurası yarada bilər.

Dissertasiya şurası dissertasiya və sənədlərin təqdim olunduğu gündən etibarən dissertasiyanın müdafiəsinin təşkili haqqında qərarı **4** (dörd) ay müddətində qəbul edir.

Dissertasiya şurasına təqdim olunan dissertasiya və avtoreferatın bir nüsxəsi müdafiə gününə azı **1** (bir) ay qalmış əlyazması hüququnda saxlanılmaq üçün şuranın fəaliyyət göstərdiyi elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin kitabxanasına verilir, dissertasiya və avtoreferatların elektron versiyaları (məzmununda dövlət sirri təşkil edən məlumatlar olan dissertasiya və avtoreferat istisna olmaqla) həmin elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin, Komissiyanın rəsmi internet saytında yerləşdirilir.

Dissertasiyanın müdafiəsi elmi müzakirə xarakteri daşımalı, yüksək tələbkarlıq, prinsipiallıq və elmi etikaya riayət edilməsi şəraitində keçirilməlidir. Dissertasiyada olan bütün nəticələrin, elmi və nəzəri-praktiki xarakterli təkliflərin dürüstlüyü və əsaslandırılması ilə əlaqədar məsələlər hərtərəfli müzakirə edilməlidir.

Dissertasiyanın müdafiəsi, bir qayda olaraq, Azərbaycan dilində keçirilir.
Dissertasiya şurası üzvlərinin və rəsmi opponentlərin açıq səsverməsi əsasında səs çoxluğu ilə qəbul olunmuş qərarla dissertasiyanın müdafiəsi, sinxron tərcümə təmin edilməklə, digər dildə keçirilə bilər.

Dissertasiyanın müdafiəsi bitdikdən sonra dissertasiya şurası gizli səsvermə keçirir.

Dissertasiya şurası müdafiənin nəticəsi haqqında müsbət qərar qəbul edildikdən sonra **2** (iki) ay müddətində iddiaçının elmi dərəcə almaq üçün Komissiyanın müəyyən etdiyi qaydada tərtib olunmuş sənədlərini, dissertasiyanın **1** (bir) nüsxəsini və onların elektron versiyasını Komissiyaya təqdim edir.

Dissertasiya şurası müdafiənin nəticəsi haqqında mənfi qərar qəbul etdikdə, dissertasiya işi yenidən işlənmək üçün həmin qərar qəbul edildiyi gündən **1** (bir) ildən tez olmamaq şərtilə ilkin müzakirədən keçirilərək təkrar müdafiəyə təqdim edilə bilər.

İddiaçı gizli səsvermə başlayana qədər yazılı ərizə ilə dissertasiyaya baxılmanı istənilən mərhələdə dayandıra bilər.

İddiaçı dissertasiyaya baxılmanı dayandırmaq haqqında dissertasiya şurasına ərizə ilə müraciət etdikdə dissertasiya şurasının sədri ərizəni, dissertasiyanın və avtoreferatın bir nüsxəsini dissertasiya şurasında saxlamaqla, iddiaçının təqdim etdiyi digər sənədlərin ona qaytarılması haqqında qərar qəbul edir.

İddiaçının müəllifinə və mənbəyinə istinad vermədən digər müəlliflərin materiallarından istifadə etdiyi aşkar olunarsa, dissertasiya şurası, dissertasiyaya baxılma mərhələsindən asılı olmayaraq, həmin dissertasiya üzrə təkrar müdafiə hüququ verilmədən dissertasiyanın ekspertizasını dayandırır. Bu zaman iddiaçının dissertasiya işinə baxılmanı dayandırmaq haqqında ərizəsi qəbul olunmur, dissertasiya və avtoreferat dissertasiya şurasının qərarı ilə birlikdə müvafiq məktubla Komissiyaya göndərilir.

## Elmi dərəcənin verilməsi

Fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi məsələsinə Komissiyanın Kollegiyasında baxılır və qərar qəbul edilir.

Kollegiyanın qərarları iclaslarda iştirak edən üzvlərin üçdə ikisinin səs çoxluğu ilə açıq səsvermə yolu ilə qəbul edilir və Komissiya sədrinin əmrləri ilə rəsmiləşdirilir.

Komissiya dissertasiya və sənədlərin mövcud tələblərə uyğunluğu üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı Komissiyaya tövsiyələr vermək üçün öz nəzdində müxtəlif elm sahələri üzrə ekspert şuraları yaradır.

Komissiyanın ekspert şurasına dəvət olunmuş iddiaçı üzrsüz səbəbə görə **2** (iki) ay müddətində iclasa gəlmədikdə, Komissiya dissertasiya işinin ekspertizasını dayandırır və iddiaçıya elmi dərəcə verilməsindən imtina barədə qərar qəbul edir.

Komissiyada elmi dərəcənin verilməsi üçün təqdim olunan dissertasiyaya və sənədlərə daxil olduğu gündən **3** (üç) ay müddətində baxılır; dissertasiya və sənədlərin ekspertizasının keçirilməsi üçün əlavə müddət tələb olunduğu hallarda Komissiya bu müddəti **3** (üç) aya qədər artıra bilər.

Sənədlərə baxılma müddətinə ilin iyul və avqust ayları daxil deyildir.

Elmi dərəcə almaq üçün Komissiyaya təqdim edilmiş dissertasiya, avtoreferat və digər sənədlərdə aşkar edilmiş nöqsanların düzəldilməsinə yol verilmir.

Elmi dərəcə verilməsi haqqında Komissiyada qərar qəbul olunanadək iddiaçının istənilən mərhələdə dissertasiyaya baxılmanı dayandırmaq hüququ vardır.

İddiaçının ərizəsinə əsasən dissertasiyaya baxılmanın dayandırılması haqqında Komissiyanın qərarı qətidir.

Dissertasiyaya baxılmanın dayandırılmasından və Komissiyanın elmi dərəcə verilməsindən imtina barədə qərarından sonra həmin dissertasiya, yeni iş kimi azı **1** (bir) ildən sonra ilkin müzakirədən keçirilməklə müdafiəyə təqdim oluna bilər.

Komissiya iddiaçının dissertasiyasında, avtoreferatında və dissertasiyanın əsas elmi nəticələrini əks etdirən dərc olunmuş işlərində müəllifinə və mənbəyinə istinad vermədən digər müəlliflərin materiallarından istifadə etdiyini aşkarlayarsa, baxılma mərhələsindən asılı olmayaraq, dissertasiyanın və sənədlərin ekspertizası, eyni mövzu və dissertasiya üzrə təkrar müdafiə hüququ verilmədən dayandırılır.
Bu zaman iddiaçının dissertasiya işinə baxılmanı dayandırmaq haqqında ərizəsi qəbul olunmur və onun dissertasiyası və sənədləri Komissiyada saxlanılır.

# Elmi dərəcədən məhrumetmə və elmi dərəcənin bərpası

Komissiya aşağıdakı hallarda elmi dərəcədən məhrumetmə ilə bağlı qərar verir:

- müdafiə proseduru pozulduqda
- elmi plagiat aşkar edildikdə
- elmi etika pozulduqda

Elmi dərəcədən məhrumetmə və elmi dərəcənin bərpası üçün təqdim olunan sənədlərə bu barədə müraciət daxil olduğu gündən 6 (altı) ay müddətində baxılır. Sənədlərin ekspertizasının keçirilməsi üçün əlavə müddət tələb olunduğu hallarda Komissiya bu müddəti 3 (üç) aya qədər artıra bilər.

Elmi dərəcədən məhrumetmə (elmi dərəcənin bərpası) məsələsinə ekspert şurasında həmin şəxsin iştirakı ilə baxılır. Aidiyyəti şəxs üzrsüz səbəbdən iclasda iştirak etmədikdə, elmi dərəcədən məhrumetmə (elmi dərəcənin bərpası) məsələsinə onun iştirakı olmadan baxıla bilər.

Komissiya elmi  dərəcədən məhrumetmənin (elmi dərəcənin bərpasının) əsaslarını özü aşkar etdiyi halda həmin məsələyə öz təşəbbüsü ilə baxır.

Elmi dərəcədən məhrumetmə məsələlərinə elmi dərəcənin verildiyi tarixdən 10 (on) il keçdikdən sonra baxılmır.